# “Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 1.2.7-ci və “Gömrük tarifi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanının 1.1.3-cü yarımbəndlərinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. “Malın mənşə ölkəsinin təyin edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 noyabr tarixli 190 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1188; 2010, № 12, maddə 1122) ləğv edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 14 yanvar 2014-cü il
№ 3

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2014-cü il 14 yanvar tarixli 3 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi Qaydaları

### 1. Ümumi müddəa

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin (bundan sonra — Gömrük Məcəlləsi) 222.5-ci və 223.4-cü maddələrinə, habelə “Gömrük tarifi haqqında” Azərbaycan Respublikası Qanununun 19.6-cı maddəsinə uyğun olaraq hazırlanmışdır və malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi qaydalarını müəyyən edir.

### 2. Əsas anlayışlar

2.1. Bu Qaydaların məqsədləri üçün istifadə olunmuş anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **franko-zavod şərtilə qiymət** — franko-zavod şərtlərinə uyğun olaraq malın sonuncu emala məruz qaldığı müəssisənin istehsalçısına ödənilməli olan qiymət. Franko-zavod şərti istehsalçı tərəfindən mal partiyasının malın istehsal olunduğu yerdə və ya anbarda alıcının sərəncamına verilməsidir (malın istehsal olunduğu yerdən və ya anbardan təyinat yerinə qədər